

Etibar VƏLİYEV

## EYNƏKLİ QADIN

Gözlərini görmədim,
Nə bilim nədir adın.
Səni necə çağırım,
Gözü eynəkli qadın?

Çək eynəyi gözündən,
Baxım qara gözünə.
Durum gün qabağında,
Kölgə salım üzünə.

Dünya özü rəng alır,
Gözlərinin rəngindən,
Sən o iki dünyanı,
Al eynəyin çəngindən.

O qara eynəyində,
Dünya qara görünər.
Ağ, qara parçalanar,
Dünya para görünər.

Bəlkə eynək altında,
Dərdi pünhan çəkirsən.
Bəlkə də gözlərinin,
Yaşını gizlədirsən.

O pünhan baxışınla,
Yandırırsan, yaxırsan.
Gözlərini görmürəm,
Bəlkə mənə baxırsan.

Bəlkə özün deyəsən,
Kimdi qohumun, yadın.
Hansı qapıya gəlim,
Gözü eynəkli qadın?

## KÖHNƏ KİŞİLƏR

Kişilər fikirləşib, sonra da söz deyiblər,
Sözləri muncuq kimi, düzüb köhnə kişilər.
Əvvəl əhd eyləyiblər, sonra çörək kəsiblər,
Dost yolunda cəfaya, dözüb köhnə kişilər.

Ağlı, kamalı olsun, varlı olmaq şərt deyil.
Kişi kasıb da olar, kasıb olmaq dərd deyil.
O vaxt da namərd olub, göründə ki mərd deyil,
Onunla haqq-salamı, pozub köhnə kişilər.

Mənəm-mənəm söyləyib, özün öyən kəsləri,
Üzdə təriflər deyib, dalda söyən kəsləri,
Sonra peşiman olub, başa döyən kəsləri,
Acıqlı bir baxışla, süzüb köhnə kişilər.

Ədaləti gözləyib, düzünə qiymət verib.
Dostuna hörmət edib, özünə qiymət verib.
Dilinə pəhriz edib, sözünə qiymət verib,
Sözlə başı bədəndən, üzüb köhnə kişilər.

## DÜNYA GÖZÜM BOYDADI

İçimdə bir mən yatır,
O mən, özüm boydadı.
Dünya gördüyüm boyda,
Dünya gözüm boydadı.

Tarda muğam, şur yanır,
İçimdə bir nur yanır.
Baxma odum gur yanır,
Yaram közüm boydadı.

Dağlar düzdən yuxarı,
Şaxta buzdan yuxarı.
Səbr üzdən yuxarı,
Səbrim dözüm boydadı.

Bu dünya özü boyda.
Ocağı közü boyda.
Hər adam sözü boyda,
Boyum sözüm boydadı.

## GEDƏSƏN

Dərd əlindən bulud kimi,
Boşalıb, dolub gedəsən.
Özün özünə ağlayıb,
Saçını yolub gedəsən.

Bir gün düzələsən yola,
Yaşın ötə, ömür dola.
Nə ağrı, nə acı ola,
Gül kimi solub gedəsən.

Cütlüklər verə qol-qala,
Qonaq gələ, mağar dola,
Ölüm də toy kimi ola,
Sən hazır olub gedəsən.

Məclis ola, yas olmaya,
Göz ağlaya, yaş olmaya,
Qalası miras olmaya,
Varını bölüb gedəsən.

Halını pozma ay lələ.
Son qonağın gələr hələ.
Qapına Əzrail gələ,
Üzünə gülüb gedəsən.

Hər gün Xuda günü gələ,
Bir gün vida günü gələ,
Ruhun cuda günü gələ,
Sonra da ölüb gedəsən.

## ANAMLA DANIŞIRAM

Mənə yalan deyiblər, mənim anam ölməyib,
Elə şeir yazanda anamla danışıram.
Yazım, yayım arxada, üzü qışa gedirəm,
Bu payızda, xəzanda, anamla danışıram.

Gündüz yer şumlayıram, axşam olur yazıram.
Mən savab qazanmaqla günahımı pozuram.
Gecə yuxu görürəm, səhər durub yozuram,
Mən yuxumu yozanda, anamla danışıram.

Elə bil anam çəkir, mənim əzablarımı.
Hər yerdə anam verir mənim cavablarımı.
Mələk çiynimdə yazır mənim savablarımı,
Günahımı pozanda, anamla danışıram.

Yer altında məktəb yox, anam oxuya gedib.
Atam torpaq altında, anam qoxuya gedib.
Atam, anam ölməyib, anam yuxuya gedib,
Hər gün yer şumlayanda, anamla danışıram.

Mələk savabdan əvvəl, şeytan günahdan əvvəl.
Gündüz günəşdən əvvəl, gecə sabahdan əvvəl.
Əl açdım, qucaq açdım, ona Allahdan əvvəl,
Namaz vaxtı, azanda, anamla danışıram.

